

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 32 (21.693)

*15 fevral 2017-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvan Muxtar Respublika mükafatına layiq görülən “Naxçıvan tarixi” çoxcildliyi Azərbaycan elminə və ictimai fikir tarixinə mühüm töhfədir




*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 9 fevral tarixli Sərəncamına əsasən, “Naxçıvan tarixi” çoxcildliyi elm sahəsində Naxçıvan Muxtar Respublika mükafatına layiq görüldü. Bu ali mükafat Naxçıvan Muxtar Respublikasının yaradılmasının 93-cü ildönümü münasibətilə keçirilmiş tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təqdim edildi. Muxtar respublikamızda, eləcə də ölkəmizdə tarix elminə mühüm və sanballı töhfə olan bu əsərin yüksək mükafata layiq görülməsi tarixi yaşadanların tarix qarşısındakı böyük xidmətidir.*

“Naxçıvan tarixi” çoxcildliyi sıradan bir tarixi əsər deyil. Bu əsər mövcudluğu çox-çox qədimlərə dayanan, böyük Şərq mədəniyyətinin əsas mərkəzlərindən sayılan, mühüm dövlətçilik ənənələri üzərində formalaşan, dünyanın iki qütbünü bir-birinə bağlayan qədim İpək Yolu üzərində yerləşən, bəşəriyyətin ikinci yaranışı üçün Seçilmiş Yer – Naxçıvanın qədim dövrlərdən bu günədək olan tarixini özündə əks etdirir.

Naxçıvan tarixən Şərq və Qərb mədəniyyətləri arasında körpü rolunu oynamış, yaxın regionda baş verən tarixi proseslərin mühüm mərkəzinə çevrilmişdir. Naxçıvan ərazisindəki qədim yaşayış yerləri hələ İslamdan xeyli əvvəl bu diyarda mövcud olmuş böyük sivilizasiyaların izlərindən xəbər verir. Sonrakı dövrlərdə zəngin Şərq ənənələri üzərində formalaşan mədəniyyəti ilə Qərb intibahına təsir göstərən, bununla da dünya mədəni irsinə dəyərli töhfələr verən Naxçıvan orta əsrlər Azərbaycanının dövlətçilik tarixində öz şərəfli yerini qoruyub saxlayıb. İslam və türk mədəniyyətinin sintezini əks etdirən Naxçıvanın özünəməxsus tarixi və abidələri tarixin heç bir dövründə indiki kimi öyrənilməyib, öyrənilməsinə və təbliğinə belə şərait yaradılmayıb. Bunun bir səbəbi sovet tarixşünaslığında müvafiq ideoloji xətdən kənara çıxmamaq idisə, digər səbəbi aparılan bir qisim araşdırmaların səthi xarakter daşıması, obyektlərin tədqiqatlara cəlb olunmasında kompleks yanaşmanın yoxluğu idi. Ümummilli liderimiz Heydər Əliyev ***“Naxçıvan Azərbaycan xalqının qədim tarixini əks etdirən müqəddəs bir torpaqdır. Naxçıvan böyük şəxsiyyətlər yetişdirmiş bir torpaqdır. Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır”*** sözləri ilə Naxçıvanın tarixinin, sadəcə, Naxçıvanla məhdudlaşmadığını göstərir və ümumilikdə, xalqımızın tarixinin öyrənilməsi baxımından əhəmiyyətli olduğunu vurğulayırdı. Qeyd etdiyimiz kimi, qədim diyarın tarixi ilə bağlı fundamental elmi tədqiqatların aparılması yalnız müstəqilliyimizin bərpasından sonrakı dövrdə mümkün olmuşdur. Muxtar respublikada aparılan böyük quruculuq işləri elm və mədəniyyətin də inkişafına şərait yaratmış, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və Ali Məclisin Naxçıvanşünaslıq Mərkəzinin yaradılması bu sahədə mühüm nailiyyətlərin əldə olunmasına imkan vermişdir. Bununla da, Naxçıvan tarixi sistemli şəkildə tədqiq olunmuş, abidələrimiz bərpa edilmiş, tariximizə və mədəniyyətimizə aydınlıq gətirən elmi əsərlər, kitablar və ensiklopediyalar, o cümlədən “Naxçıvan tarixi” çoxcildliyi nəşr olunmuşdur.

Qeyd edək ki, Naxçıvanın tarixi haqqında əsl həqiqətləri özündə əks etdirən ümumiləşdirici əsərin yazılması ideyası ilk dəfə 11-12 iyul 1996-cı ildə Naxçıvan şəhərində keçirilən “Uluslararası qaynaqlarda Naxçıvan” Beynəlxalq Simpoziumunda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən irəli sürülmüş, Naxçıvanın yeni istiqamətdə, milli ruhda, gerçək mənbələr əsasında, milli mənafe əsas götürülməklə əsl tarixinin yazılması tədqiqatçılar qarşısında bir vəzifə kimi qoyulmuş və vurğulanmışdır ki, “Bizə görə “Uluslararası qaynaqlarda Naxçıvan” Simpoziumunun materialları ən yaxın dövrdə yazılacaq Naxçıvan tarixinin proqramı, necə deyərlər, eskizi, layihəsi, ilkin variantı, bəlkə də əsas istiqamətləri olacaqdır”. Ancaq bu məsuliyyətli vəzifənin uğurlu həllinə nail olmaq üçün həmin vaxt ölkəmizdə olduğu kimi, ağır və çətin günlərini yaşayan Naxçıvan Muxtar Respublikasında da lazımi şərait yox idi. Ən başlıcası, əvvəlki dövrlərdə aparılan tədqiqatlar, əldə olunan elmi nəticələr belə bir möhtəşəm nəşrin yazılması üçün kifayət etmirdi.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli deyir ki, bu çatışmazlıqları və maneələri aradan qaldırmaq üçün Naxçıvan tarixinin ən qədim zamanlardan müasir dövrədək müxtəlif problemlərinin tədqiqi ilə əlaqədar aparılan elmi-tədqiqat işlərinin səmərəliliyinin və keyfiyyətinin artırılması üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, muxtar respublika ərazisindəki tarix-mədəniyyət abidələri pasportlaşdırılmış, bu abidələr əsasında “Naxçıvan Abidələri Ensiklopediyası” hazırlanmışdır. Naxçıvan Muxtar Respublikasında aparılan arxeoloji tədqiqatlar genişləndirilmiş, yerli tədqiqatçıların iştirakı ilə 10-a yaxın arxeoloji ekspedisiya, həmçinin ABŞ və Fransa arxeoloqlarının iştirakı ilə iki beynəlxalq ekspedisiya, 2013-cü ildən AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası fəaliyyət göstərməyə başlamışdır. Naxçıvan Muxtar Respublikasının müxtəlif yerlərində, o cümlədən Gəmiqayada, Ovçular təpəsində, Oğlanqalada, Ərəbyengicədə, Duzdağda, I Kültəpədə, Xaraba Gilanda və başqa yerlərdə aparılan arxeoloji tədqiqatlar sübut etdi ki, Naxçıvan bölgəsi Yaxın Şərqin ən qədim mədəniyyət mərkəzlərindən biri olmuşdur. Aparılan son tədqiqatlar göstərdi ki, Naxçıvanda insanlar ən qədim zamanlardan – Ovçular təpəsində 500-300 min il, Qazma mağarasında 120 min il bundan əvvəl yaşamış, bölgə ilkin şəhər mədəniyyətinin yarandığı ərazilərdən biri olmuş, əsası bir yaşayış məskəni kimi daha əvvəllər qoyulmuş Naxçıvan 5000 il bundan əvvəl şəhər kimi formalaşmağa başlamışdır. Yüksək inkişaf yolu keçən Naxçıvan bölgəsi Eneolit mədəniyyətinin, Kür-Araz mədəniyyətinin və Boyalı qablar mədəniyyətinin yarandığı mərkəzə çevrilmişdir. Tariximizin müxtəlif problemləri ilə əlaqədar Naxçıvanda keçirilən respublika və beynəlxalq miqyaslı konfrans və simpoziumlarda Naxçıvan tarixi ilə əlaqədar çoxlu sayda məruzələr dinlənilərək müzakirə olunmuş, əldə olunan nəticələr təhlil edilmiş, bundan sonra qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir. Keçən müddət ərzində Naxçıvan Muxtar Respublikasında elm sahəsində sistemli və ardıcıl şəkildə aparılan işlər öz uğurlu nəticəsini vermiş, Naxçıvan tarixinin müxtəlif problemlərinin həllini özündə əks etdirən böyük elmi xəzinə yaradılmışdır. Alim qeyd edir ki, yaradılan münbit şərait çoxlu sayda əsərlərin yazılmasına gətirib çıxarsa da, bu əsərlər Azərbaycan tarixinin tərkib hissəsi kimi Naxçıvan tarixinin ayrı-ayrı problemlərinə həsr olunmuşdu və bütövlükdə, bölgə tarixi haqqında ümumi təsəvvür yarada bilmirdilər. İndiyədək bu boşluğu aradan qaldıra bilən, Naxçıvan tarixinin bütün dövrlərini və problemlərini özündə sistemli şəkildə əks etdirən akademik nəşr işıq üzü görməmişdi. Muxtar respublikanın hərtərəfli inkişafı belə bir əsərin nəşr olunmasını aktual bir məsələ kimi qarşıya qoymuşdu. Ona görə də Naxçıvan tarixi ilə əlaqədar aparılan bütün tədqiqatların sistemləşdirilməsi və tarixi həqiqətlərin obyektiv şəkildə beynəlxalq ictimaiyyətə çatdırılması üçün sanballı ümumiləşdirici əsərin yaradılmasına böyük ehtiyac var idi. Məhz bütün bunları, xüsusilə yaradılmış elmi bazanın “Naxçıvan tarixi” çoxcildliyi kimi möhtəşəm və fundamental nəşrin hazırlanmasına imkan verəcəyini, eyni zamanda muxtar respublikada hazırlanan kadr potensialının bu nəşrin hazırlanmasının öhdəsindən gələ biləcəyini nəzərə alan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 6 avqust 2012-ci ildə “Naxçıvan tarixi” çoxcildliyinin hazırlanması və nəşr olunması barədə” Sərəncam imzalamışdır. Elmin son nailiyyətləri, xüsusilə son 10 ildə aparılan tədqiqatların nəticələri əsasında yazılmış çoxcildliyin 2013-cü ildə I cildi, 2014-cü ildə II cildi, 2015-ci ildə isə III cildi hazırlanaraq “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində yüksək poliqrafik səviyyədə çap edilmişdir.

Xatırladaq ki, “Naxçıvan tarixi” çoxcildliyinin nəşri və ötən il yanvarın 26-da Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində bu əsərin ictimaiyyətə təqdim olunması Azərbaycan elmində əlamətdar hadisə kimi dəyərləndirilmişdir. “Naxçıvan tarixi” çoxcildliyində tarixə hərtərəfli baxış prinsipi ortaya qoyulmuş, ən qədim dövrlərdən günümüzədək Naxçıvanda elmin, mədəniyyətin, ədəbiyyatın, sənətkarlığın, eləcə də mətbuatın inkişafı tariximizin ayrılmaz tərkib hissəsi kimi araşdırılmışdır. Azərbaycan tarixşünaslığı üçün örnək tədqiqat toplusu sayılan bu kitab xalqımızın etnogenezinin öyrənilməsi baxımından da dəyərli və sanballı əsərdir.

Yuxarıda qeyd etdiyimiz kimi, 2017-ci il fevralın 9-da “Naxçıvan tarixi” çoxcildliyinin Naxçıvan Muxtar Respublika mükafatına layiq görülməsi mühüm əhəmiyyətə malikdir. Bununla bağlı keçirilən tədbirdə Ali Məclisin Sədri demişdir: ***“...İqtisadiyyatı inkişaf etdirmək, yol çəkmək, bina tikmək bütün dövrlərdə mümkündür. Lakin elmi, təhsili və mədəniyyəti inkişaf etdirmək çətin və məsuliyyətli məsələdir. Naxçıvanda digər sahələrlə yanaşı, elm, təhsil və mədəniyyətin də inkişafına nail olunub. Bu gün Naxçıvan Muxtar Respublikasının inkişafı, bütün sahələrdə qazanılan uğurlar ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinə sədaqətin bəhrələridir. Naxçıvan Muxtar Respublikasının yaranmasının 93-cü ildönümü günündə “Naxçıvan tarixi” çoxcildliyinin muxtar respublika mükafatına layiq görülməsi mühüm əhəmiyyətə malikdir. Alim və tədqiqatçılar bundan sonra da Naxçıvanın tarixi, mədəniyyəti, elmi və təhsilinin inkişafı sahəsində səylərini artırmalı, yeni əsərlər yazılmalıdır”.***

Bəli, “Naxçıvan tarixi” çoxcildliyinə verilən bu yüksək dəyər həm də tarixə verilən böyük dəyərdir. Tarixə dəyər verənlərin haqqını isə tarix əbədiyyən özündə yaşadır.

✍ **Səbuhi HƏSƏNOV**

## Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinə sakinlər tərəfindən yeni eksponatlar təqdim olunub

***Muxtar respublikamızda fəaliyyət göstərən muzeylərə sakinlər tərəfindən eksponatların təqdim edilməsi bir ənənəyə çevrilməkdədir. Bu, qədim tariximizi özündə yaşadan muzeylərimizin zənginləşdirilməsində, belə mədəniyyət müəssisələrinə ziyarətçi axınının gücləndirilməsində, xalqımızın öz təfəkkür süzgəcindən keçirməklə yaratdığı müxtəlif əl işlərinin mühafizə edilib gələcək nəsillərə ötürülməsində mühüm rol oynayır. Növbəti belə bir tədbir Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyində keçirilib.***



Ordubad rayon sakinləri Zenfira Quliyeva və Əyyar Səfərov tərəfindən muzeyə yundarağı, su kuzəsi, müxtəlif küplər, mis qablar, neft lampası, toxuculuq məmulatları və sair olmaqla, 18 eksponat verilib.

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova bildirib ki, bu gün muzey işçilərinin qarşısına böyük vəzifələr qoyulub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” 2014-cü il 19 dekabr tarixli Sərəncamına əsasən, muxtar respublikanın nazirlik, komitə və təşkilatlarının kollektivləri, tələbələr, gənclər, həmçinin şagirdlər, taksi sürücüləri mütəşəkkil şəkildə muzeylərimizi ziyarət edirlər. Təkcə ötən il muxtar respublikanın muzeylərini 320 mindən çox insan ziyarət edib.

“Son bir il ərzində Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən mütəşəkkil şəkildə muzeylərimiz üçün maddi-mədəniyyət nümunələrinin toplanması işi diqqətdə saxlanılıb. Bu işdə muxtar respublika sakinləri bizə yaxından köməklik göstərirlər”,– deyən Natəvan Qədimova bildirib ki, 2016-cı il ərzində muzeylərə 1500-ə yaxın yeni eksponat daxil olub.

Natəvan Qədimova mədəniyyətimizə göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə bütün mədəniyyət işçiləri adından minnətdarlığını ifadə edib, maddi-mədəniyyət nümunələrini muzeyə təqdim etdiklərinə görə Ordubad rayon sakinləri Zenfira Quliyevaya və Əyyar Səfərova təşəkkürünü bildirib.

Sonra Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Vilayət Bağırov, eksponatları muzeyə təqdim edənlər Zenfira Quliyeva və Əyyar Səfərov çıxış edərək rayonda maddi-mədəni irsimizin qorunub yaşadılması sahəsində görülən tədbirlərdən danışıblar. Bildiriblər ki, muxtar respublikanın bütün sakinləri kimi, Ordubad ziyalıları da maddi-mədəniyyət nümunələrinin toplanmasında fəal iştirak edirlər. Çünki muzeylərin fəaliyyətinin canlandırılmasında bu mədəniyyət müəssisələrinin zənginləşdirilməsi əsas məsələlərdən biridir. Ona görə də hər bir vətəndaş fəal təşəbbüskarlıq göstərməli və qədim məişət əşyalarını muzeylərə təqdim etməklə bu işə öz töhfəsini verməlidir.

**Əli RZAYEV**

***"Ehtiyacını hər kimdən istəsən onun əsiri olarsan". Həzrəti Əlinin bu müdrik kəlamı insanlara aid olsa da, ölkələr üçün də belədir. Əgər bir dövlət insanların zəruri ehtiyacları üçün başqa ölkədən asılıdırsa, o heç vaxt müstəqil yaşaya və inkişaf edə bilməz. Odur ki, hər bir ölkənin qarşısında duran mühüm vəzifələrdən biri, bəlkə də birincisi enerji və ərzaq təhlükəsizliyinin təmin olunmasıdır. Çünki zəruri ehtiyacların ödənilməsi yalnız bu iki amildən asılıdır. Bir-birinə bağlı olan enerji və ərzaq təhlükəsizliyi təmin olunmadan bir ölkənin müstəqil yaşaması, tarixini, milli dəyərlərini, təbii sərvətlərini qoruya bilməsi, öz şərtlərini diktə etməsi mümkün deyil. Əgər yaşamaq üçün ərzaq məhsullarını kimdənsə alırıqsa, o da bunun müqabilində bizdən dəyəri heç bir valyuta ilə ölçülməyənləri istəyəcək. Necə ki ötən əsrin 90-cı illərinin əvvəllərində biz 15-20 kiloqram kartofa, 1 kisə una qiymətli xalçalarımızı, qədim tariximizi özündə əks etdirən əşyalarımızı verdik. Ona görə də ərzaq təhlükəsizliyi ölkələrin milli təhlükəsizlik sisteminin tərkib hissəsidir.***

# Naxçıvan məhsulları özünəməxsus imic qazanıb

## *Bəzi "işbazlar" coğrafi göstərici qismində "Naxçıvan" adından qeyri-qanuni istifadə etməklə kontrafakt məhsullar istehsal edirlər*

BMT-nin Kənd Təsərrüfatı və Ərzaq Təşkilatının mütəxəssisləri tərəfindən müəyyən edilmiş kriteriyalara görə ərzaq təhlükəsizliyi dedikdə bütün insanların kifayət qədər keyfiyyətli qidaya fiziki və iqtisadi çıxış imkanlarına malik olması başa düşülür. Təşkilatın 2008-ci ildə Romada keçirdiyi sammitdə qəbul olunmuş bəyannamədə deyilir ki, hər bir dövlət öz vətəndaşlarının sağlamlığı üçün onları təhlükəsiz qida ilə təmin etməyə borcludur. Ərzaq təhlükəsizliyi təmin edilən ölkələr idxaldan asılı olmur, ərzaq sistemini mövsüm, hava və digər amillərlə bağlı risklərdən qoruyur, beləliklə, heç kimə möhtac olmadan yaşayır və müstəqil siyasət yürüdürlər. Azərbaycan məhz belə ölkələr sırasındadır. Ölkəmizdə bu sahədə həyata keçirilən tədbirlər, qəbul olunan dövlət proqramları ərzaq təhlükəsizliyinin təmin edilməsinə şərait yaradıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ötən ilin sonlarında təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair strateji Yol Xəritəsi" bu sahədə daha böyük uğurların qazanılmasına imkan verəcək.

Dövlətimizin bu istiqamətdə əldə etdiyi ən böyük uğurlardan biri də blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyinin tam təmin olunmasıdır. Təqribən 20 il bundan öncə un məhsullarından kartofa, meyvə-tərəvəzdən süd və ət məhsullarına qədər, demək olar ki, hər şeyi idxal edən Naxçıvan bu gün həmin məhsulları ixrac edir. Ölkə başçısı cənab İlham Əliyev muxtar respublikaya son səfərində bu sahədə də görülən işləri yüksək qiymətləndirib: ***"Mən çox şadam ki, respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı çox önəmli addımlar atılır. Naxçıvanda sənaye müəssisələri yaradılır, kənd təsərrüfatı inkişaf edir, bir çox kənd təsərrüfatı məhsulları ilə siz özünüz-özünüzü təmin edirsiniz".***

Blokada şəraitində olan Naxçıvanda bütün bunlara asanlıqla nail olunmayıb. İllərlə çəkilən zəhmət, Vətənə, doğma torpağa olan sevgi bu gün heç kimə möhtac olmayan Naxçıvanın qurulmasına gətirib çıxarıb.

Görkəmli Amerika yazıçısı Robert Ardrey yazırdı ki, əlçatmaz arzuların arxasınca gedərək biz qeyri-mümkünlərə nail oluruq. Bəli, müasir Naxçıvanın uğurları ötən əsrin 90-cı illərinin əvvəllərindən baxdıqda əlçatmaz görünürdü. O dövrdə kim inanardı ki, vaxt gələcək Naxçıvanın enerji və ərzaq təhlükəsizliyi tam təmin olunacaq, muxtar respublikada ərzaq məhsullarından avtomobilə qədər hər şey istehsal ediləcək, Naxçıvan məhsulları paytaxt Bakı bazarında əl-əl axtarılacaq, xarici bazara çıxarılacaq. Saatlarla çörək növbəsində dayanan sadə naxçıvanlılar bunları xəyallarına belə, gətirə bilməzdilər. Amma buna inanan müdrik insanlar var idi. Onlar bilirdilər ki, zəhmət çəkilərsə belə bir Naxçıvan qurmaq mümkündür. Çünki Naxçıvanın torpağı bərəkətli, insanları zəhmətkeşdir. Muxtar respublikanın ərzaq təhlükəsizliyini təmin edəcək məhsulların istehsalı üçün xammal da buradadır. Odur ki, Naxçıvan əlçatmaz arzuların arxasınca gedərək qeyri-mümkünlərə nail oldu.

Görkəmli rəssam Pablo Pikasso haqqında oxuyarkən onun dediyi bir söz xüsusilə diqqətimi cəlb eləmişdi: "Uğur qazanmaq üçün inanmaq lazımdır". Fikrimizcə, bütün uğurların təməlində inam dayanır. İnanaraq bütün çətinliklərə qalib gəlmək olar. Müasir Naxçıvanın böyük uğurlarının səbəblərindən biri də budur. Bu inamın əsası ötən əsrin 90-cı illərinin əvvəllərində qoyulub. Naxçıvanlılar o dövrdə muxtar respublikaya rəhbərlik edən ulu öndərimiz Heydər Əliyevə inanaraq bir yola çıxdılar və Heydər Əliyev yolu ilə gedərək blokada şəraitində belə, heç kimə möhtac olmadan yaşamağın mümkünlüyünü sübuta yetirdilər.

Kənd təsərrüfatının inkişafına göstərilən qayğı, bu sahədə görülən işlər məhsul bolluğu yaradıb. İlk növbədə, suvarma suyuna olan tələbatın ödənilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilib. Ona görə də kənd adamları əkin sahələrini ilbəil genişləndirirlər. Torpaq mülkiyyətçiləri bilir ki, çəkdikləri zəhmət hədər getməyəcək, əkin sahələri susuzluqdan məhv olmayacaq.

Son 20 il ərzində Heydər Əliyev Su Anbarının tikintisinin başa çatdırılması, Arpaçay, Uzunoba Su anbarlarının yenidən qurulması, yeni subartezian quyularının qazılması, nasos stansiyalarının tikilməsi suvarma suyuna olan tələbatın ödənilməsinə imkan verib. Təqribən 20 il bundan öncə Araz Su Anbarı istisna olmaqla, su anbarlarının tutumu 200 milyon kubmetrə yaxın idisə, bu rəqəm indi 303,5 milyon kubmetrdir. Subartezian quyuları, nasos stansiyalarını və kəhrizləri nəzərə alsaq deyə bilərik ki, Naxçıvanda kifayət qədər su ehtiyatı yaradılıb. Bütün bunların nəticəsidir ki, son illər 6 min hektardan çox torpaq sahəsi yeni əkin dövriyyəsinə qatılıb.

Muxtar respublikada ciddi su qıtlığı hiss olunmasının əsas səbəblərindən biri də su itkisinə yol verilməsi ilə bağlı idi. Son illər mütərəqqi əkinçilik üsullarının – taxıl sahələrində şırım, meyvə bağlarında damcı, bostan-tərəvəz sahələrində çiləmə üsullarının tətbiqi, qapalı suvarma sistemlərinin yaradılması su itkisinin qarşısını alıb. Məsələn, əvvəllər 1 hektarın suvarılması üçün 1000 kubmetr su sərf olunurdusa, indi 1000 kubmetr su ilə damcı üsulu tətbiq edilən 7 hektar ərazi suvarılır. Kifayət qədər su ehtiyatının yaradılması, mütərəqqi əkinçilik üsullarının tətbiqi onu deməyə əsas verir ki, muxtar respublikada bir neçə il quraqlıq olsa belə, Naxçıvanda içməli və suvarma suyu baxımından heç bir çətinlik olmayacaq.

Strateji ərzaq məhsulu olan taxılın yerli istehsal hesabına ödənilməsi diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Taxıl istehsalçılarının marağının artırılması məqsədilə subsidiyaların verilməsi, torpaq mülkiyyətçilərinin mineral gübrələrlə, əkin və biçin texnikaları ilə təminatı, taxıl ehtiyatı anbarlarının yaradılması bu sahədə əkin sahələrinin genişləndirilməsinə, məhsul istehsalının artırılmasına səbəb olub. Ötən əsrin 90-cı illərinin əvvəllərində torpaq mülkiyyətçiləri min bir əziyyətlə yetişdirdikləri taxılı texnika çatışmazlığı ucbatından vaxtında toplaya bilmirdilər. Taxıl zəmilərinin məhsulunu itkisiz toplamağı bacaranların isə həmin məhsulu satmağa yeri, üyütməyə dəyirmanı yox idi. Naxçıvanda taxıl ehtiyatı anbarlarının yaradılması, taxılın 1 kiloqramının 30 qəpikdən mərkəzləşmiş qaydada satın alınması, yeni un dəyirmanlarının istifadəyə verilməsi torpaq mülkiyyətçilərinin taxıl istehsalına marağını daha da artırıb. Bunun nəticəsidir ki, təkcə ötən il 31 min 579 hektar taxıl əkini sahəsindən 94 min 117 ton məhsul yığılıb.

Muxtar respublika əhalisinin meyvə-tərəvəz və bostan məhsulları ilə etibarlı təminatı istiqamətində də mühüm işlər görülüb. "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın uğurlu icrası nəticəsində yüz hektarlarla sahədə yeni meyvə bağları salınıb, tərəvəz əkini sahələri artırılıb. 2016-2020-ci illəri əhatə edən yeni dövlət proqramı bu sahədə daha böyük nailiyyətlər qazanılmasına stimul olub. Meyvəçilik və tərəvəzçiliklə bağlı qəbul olunan dövlət proqramları artıq öz bəhrəsini verir. Ötən il əkin sahələrindən 83 min tondan çox tərəvəz, meyvə bağlarından isə 52 min tona yaxın məhsul götürülüb.

Meyvə-tərəvəz məhsulları istehsalının artırılması işin bir tərəfidir. Əgər yaz və payız fəslində yetişdirilən məhsulların qış dövrünə saxlanılması mümkün deyilsə, deməli, ərzaq təhlükəsizliyinin təmin olunmasından söhbət gedə bilməz. Dövlətimizin diqqət və qayğısı ilə son illər Naxçıvanda ümumi tutumu 14 min 230 ton olan 31 soyuducu anbarın yaradılması isti aylarda yetişdirilən məhsulların qış dövrünə saxlanılmasına imkan verir.

Bununla yanaşı, ümumi sahəsi 127 min 162 kvadratmetr olan 21 istixana kompleksinin istifadəyə verilməsinin nəticəsidir ki, qış aylarında əhali faraş tərəvəz məhsulları ilə təmin olunur. Artıq muxtar respublika sakinləri qış dövründə xaricdən gətirilərək od qiymətinə satılan, geni dəyişdirilmiş məhsulları almaq məcburiyyətində deyil.

Muxtar respublikada əkinçiliklə yanaşı, heyvandarlığın inkişafı da diqqət mərkəzindədir. Baytarlıq xidmətinin müasir tələblər səviyyəsində təşkili, yem bazasının intensiv texnologiyalar əsasında inkişafı, qarışıq qüvvəli yemə olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi iri heyvandarlıq və quşçuluq təsərrüfatlarının yaradılması, ət və süd istehsalının artırılması ilə nəticələnib. Ötən əsrin 90-cı illərinin əvvəllərində 1 kiloqram ət almaq üçün şəhərin gözü açılmamış pay-piyada Cəhriyə, yaxud Nehrəmə üz tutan Naxçıvan şəhər sakinləri indi istəsələr lap gecə saat 2-3-də "Sizin market"dən təzə ət ala bilərlər.

Əkinçiliyin və heyvandarlığın inkişafı qida məhsulları istehsal edən emal və sənaye müəssisələrinin yaradılmasına gətirib çıxarıb. Bu gün muxtar respublikada 107 ərzaq məhsuluna olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Muxtar respublikada torpaq mülkiyyətçiləri kimi, istehsal müəssisələri yaratmaq istəyən sahibkarlar da böyük diqqət və qayğı ilə əhatə olunub, müəssisələrin qurulması üçün torpaq sahələri ayrılıb, kreditlər verilib. Naxçıvanda dövlət dəstəyi ilə fəaliyyətə başlayan çörək, ət, süd, makaron, yarma, şirniyyat, mineral sular, limonad və digər ərzaq məhsulları istehsalı müəssisələri dükan və bazarlarımızda bolluq yaradıb. Muxtar respublikada istehsal olunan kənd təsərrüfatı məhsulları kimi, sənaye üsulu ilə hazırlanan ərzaq məhsullarının da keyfiyyətinə ciddi fikir verilir. Dövlət sahibkarlara yaradılan şəraitin müqabilində













*Ardı 3-cü səhifədə*

onlardan yalnız bir şey istəyir – keyfiyyətli məhsul. Çünki keyfiyyətli məhsul istehsalı ilə biz əhalinin sağlamlığını qoruya, Naxçıvan məhsullarını xarici bazara çıxara bilərik. Muxtar respublikanın aid dövlət orqanlarının ciddi nəzarətinin nəticəsidir ki, Naxçıvan məhsulları öz keyfiyyəti ilə seçilir. Odur ki, “Bərəkət”in, “Müasir Məkan”ın, “Hilal”ın ət və süd məhsulları, “Ləzzət”in vaflisi, peçenyesi, “Badamlı”nın, “Sirab”ın mineral suları, meyvə şirələri, “Cahan”ın çayı və adını sadalamadığımız onlarla müəssisənin məhsulları ölkəmizin paytaxtı Bakı şəhərində özünə kifayət qədər alıcı toplayıb. Bu məhsulların xarici bazara çıxarılması üçün yaradılan “Naxçıvan Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyəti qısa zaman ərzində öz fəaliyyətini genişləndirib. Naxçıvanın keyfiyyətli məhsullarının səsi-sorağı nəinki bizə qonşu olan dövlətlərdən, həmçinin MDB, Avropa və Ərəb ölkələrindən də gəlir.

Paytaxt Bakı bazarında və ölkəmizin digər regionlarında Naxçıvan məhsullarına tələbatın artmasının səbəbi keyfiyyəti ilə seçilən bu məhsulların özünəməxsus imic qazanmasıdır. İstehlakçılar bilir ki, aldıqları məhsul Naxçıvanda istehsal olunubsa, deməli, ekoloji cəhətdən təmiz və keyfiyyətlidir.

Əslində, bu yazını qələmə almağımıza vəsilə olan da bununla bağlı qarşılaşdığımız bir hadisə və gəldiyimiz qənaətdir.

Təqribən bir həftə bundan öncə Bakı şəhərində yaşayan həmkarlarımızdan biri mənə zəng etmişdi. Hal-əhval tutduqdan sonra bu yaxınlarda Bakı şəhərindəki bazarlardan birindən Naxçıvan kolbasası aldığını, amma Naxçıvandan göndərilən məhsulların dadını vermədiyini bildirdi: “Deyəsən, burada “Naxçıvan” adı ilə kontrafakt məhsullar istehsal olunur”, – dedi.

Ertəsi gün Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə əlaqə saxladıq. Aydın oldu ki, Naxçıvanın adından istifadə olunaraq keyfiyyətsiz ət və süd məhsulları istehsal edilib bazara çıxarılır. Deməli, öz keyfiyyəti ilə seçilən Naxçıvan məhsulları özünəməxsus imic qazanıb, bu məhsullara paytaxt Bakı bazarında ciddi tələbat yaranıb ki, Naxçıvanın adından istifadə edən bəzi “işbazlar” pul qazanmaq həvəsinə düşüblər.

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsindən bildirdilər ki, bir sıra hallarda Naxçıvan məhsullarının yüksək imicinə xələl gətirə biləcək faktlara, saxtakarlıq hallarına rast gəlirik. Bu da ciddi təəssüf doğurmaqla yerli istehsalçıların narahatlığına və istehlakçıların yanıldılmasına səbəb olur. Belə ki, Bakı şəhəri, Nizami rayonu, Keşlə qəsəbəsi, Sabir küçəsi $8^A$ ünvanında yerləşən “Al-Sana” MMC-nin istehsal etdiyi kolbasa məhsullarında və Abşeron rayonu, Xırdalan şəhəri, akademik Həsən Əliyev küçəsi 38 ünvanında yerləşən “Zəhmət-Ruzi” MMC-nin istehsalı olan “Sab” markalı süd məhsullarında coğrafi göstərici qismində “Naxçıvan” sözündən istifadə edilməsinə dair muxtar respublikada fəaliyyət göstərən analoji məhsulların istehsalçıları tərəfindən komitəyə müraciət daxil olub.




“Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununa əsasən, coğrafi göstəricidən istifadə həmin ərazidə xidmət göstərən sahibkarlar üçün nəzərdə tutulur. Eyni zamanda əmtəə nişanları, coğrafi göstəricilər və ya onlarla qarışdırılacaq dərəcədə oxşar olan nişanlarla qeyri-qanuni təchiz olunan mallar kontrafakt məhsullar hesab edilir.

Məsələ ilə bağlı komitə tərəfindən daxili bazarda aparılan araşdırmalar zamanı müəyyən olunub ki, həqiqətən də, “Al-Sana” və “Zəhmət-Ruzi” Məhdud Məsuliyyətli cəmiyyətləri tərəfindən istehsal olunmuş bir sıra kolbasa və süd məhsulları müvafiq qanunvericiliyin tələbləri nəzərə alınmadan, qeyri-qanuni şəkildə, Naxçıvan Muxtar Respublikası ilə əlaqəsi olmadan “Naxçıvan” adı ilə markalanıb. Bu qanunazidd əməl, ilk növbədə, məhsulun mənşə yeri ilə bağlı istehlakçıların aldadılmasına səbəb olmaqdadır. Digər tərəfdən isə bu kontrafakt məhsulların istehsalçılarının ad və mənşə yeri ilə bağlı qanunsuz əməllərinin eyni qaydada məhsulun keyfiyyət göstəricilərində də təkrarlanacağından ehtiyat edən yerli sahibkarlarımız uzun illər ərzində vicdanlı fəaliyyətləri ilə qazandıqları müştəri məmnunluğunu itirəcəklərindən ciddi narahatçılıq keçirməkdədirlər.

İstehlakçıların və sahibkarların nəzərinə çatdırılır ki, bu məhsullar kontrafakt məhsullar sayılır və belə məhsullara rast gəldikdə Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə və Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinə operativ məlumat versinlər.

Aşkar olunmuş saxtakarlıq hallarına qarşı mübarizə tədbirləri çərçivəsində müvafiq hüquqi prosedurlar başladılıb.

Söhbət Naxçıvan məhsullarının qazandığı imicin itirilməsindən gedir. Odur ki, həm sahibkarların, həm də müvafiq dövlət orqanlarının bu məsələyə ciddi yanaşması təqdirəlayiqdir.

“2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nın icrasının uğurla başa çatdırılması, meyvəçiliyin və tərəvəzçiliyin inkişafı ilə bağlı dövlət proqramının icrasının uğurla davam etdirilməsi bu sahədə böyük nailiyyətlər qazanılmasına imkan verib. Nəticədə, yerli məhsul istehsalı artıb, keyfiyyətli ərzaq məhsulları istehsalına münbit şərait yaranıb. Naxçıvanlı sahibkarlar da yaradılan şəraitdən səmərəli istifadə edərək yüksəkkeyfiyyətli məhsullar istehsal edirlər. Naxçıvanlı sahibkarlar Bakı şəhərindəki bəzi “işbazlar”ın Naxçıvan adından istifadə etməsinin muxtar respublikada istehsal olunan məhsulların imicinə xələl gətirəcəyindən narahatdırlar. Əslində, bu “işbazlar” Naxçıvan adından istifadə etsələr də, muxtar respublikada istehsal olunan məhsulların imicinə xələl gətirə bilməzlər. Çünki təkcə Naxçıvan məhsulları deyil, elə Naxçıvanın özü böyük bir ictimai etimad qazanıb. İctimai düşüncədə belə bir fikir formalaşıb ki, bu məhsul Naxçıvanda istehsal olunubsa, keyfiyyətsiz ola bilməz. Belə bir Naxçıvanla hamımız fəxr edirik.

**Tural SƏFƏROV**

## Muxtar respublikada uşaq hüquqlarının qorunması diqqət mərkəzindədir

***Muxtar respublikanın sürətli sosial-iqtisadi inkişafı uşaqların sağlamlığının qorunması və onların müasir tələblər səviyyəsində təhsil almasına imkan verir. Uşaqların hüquq və maraqlarının müdafiəsi, dövlət uşaq siyasətinin həyata keçirilməsi ötən il də davam etdirilmişdir.***

Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankına 2016-cı ildə 4645 uşaq haqqında fərdi məlumatlar daxil edilmişdir. Muxtar respublikada uşaqların sayı ötən il 1690 nəfər artaraq 160 min 793-ə çatmışdır. Hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, eləcə də övladlığa götürülmüş uşaqların uçotu aparılmış, bu kateqoriyadan olan, eləcə də sağlamlıq imkanları məhdud və aztəminatlı ailələrin üzvü 398 uşaq məktəbli paltarı, dərs ləvazimatları və qış geyimi ilə təmin olunmuşdur. Bununla yanaşı, bayram günlərində valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş 15 uşağa, eləcə də aztəminatlı ailələrdən olan 61 uşağa hədiyyə və sovqatlar verilmişdir.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların təhsil alması və cəmiyyətə inteqrasiyası məqsədilə mühüm tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın icrası nəzarətdə saxlanmış, müvafiq uşaqlar məktəbəqədər, ümumtəhsil, peşə və məktəbdənkənar təhsil müəssisələrinə cəlb edilmişdir. Belə ki, 2016-2017-ci tədris ilinin əvvəlində 59 uşaq məktəbəqədər təhsil müəssisələrinə, 16 uşaq ümumtəhsil məktəblərinin məktəbəqədər hazırlıq qruplarına, 8 uşaq Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə, 88 uşaq ümumtəhsil məktəblərinə, 3 uşaq distant tədrisə cəlb edilmişdir. Ümumilikdə, ümumtəhsil məktəblərində bu kateqoriyadan olan 942, Görmə Qabiliyyəti Məhdud Uşaqlar üçün Xüsusi İbtidai Məktəbdə 8, Distant Tədris Mərkəzində 23 uşaq təhsil almışdır. Sağlamlıq imkanları məhdud uşaqların peşə təhsilinə cəlbi qarşıda duran əsas vəzifələrdəndir. Hazırda orta ixtisas təhsili müəssisələrində sağlamlıq imkanları məhdud 26 uşaq təhsil alır.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların məktəbdənkənar müəssisələrə cəlbi istiqamətində də davamlı işlər görülmüş, 2016-cı ildə 26 uşaq musiqi məktəblərinə, 118 uşaq idman qruplarına, 163 uşaq məktəbdənkənar təhsil müəssisələrinin dərnəklərinə, 144 uşaq Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinə cəlb edilmişdir. Həmçinin diqqət zəifliyi olan və hiperaktiv uşaqlar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində müasir tədris vasitələri ilə təmin olunmuş təlim-bərpa otağı istifadəyə verilmiş, Naxçıvan Uşaq Bərpa Mərkəzində əmək terapiyası otağı təşkil olunmuşdur.

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin audio-kitabxana fonduna 95 audiomaterial, elektron kitabxana fonduna isə 129 yeni elektron kitab əlavə edilmişdir. Həmçinin sağlamlıq imkanları məhdud uşaqların ölkədaxili və ölkədənkənar müalicələri təşkil olunmuş, dayaq-hərəkət sistemi problemləri olan 5 uşaq Türkiyə Respublikasının Dənizli vilayətindəki Nobel Tibb Mərkəzinə, 5 uşaq isə Bakı şəhərindəki Xüsusi Qayğıya Ehtiyacı olan Uşaqlar üçün Dövlət Reabilitasiya Müəssisəsinə göndərilmişdir.

Məktəbəqədər təhsil müəssisələrində uşaqların fiziki və əqli inkişaflarını, habelə yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək üçün tədrisdə müasir təlim üsulları tətbiq edilmiş, təlim-tərbiyə üzrə məsul işçilərin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə təşkil edilən kurslara 158 müəllim, metodist və tərbiyəçi cəlb edilmiş, 231 adda xüsusi tədris vəsaitləri və 20 adda müxtəlif mövzuda audiokitablar müvafiq uşaq müəssisələrinə verilmişdir. Tədrisə cəlb edilmiş sağlamlıq imkanları məhdud uşaqlara qarşı tolerant mühitin yaradılması məqsədilə aidiyyəti dövlət orqanları tərəfindən il ərzində şagird və müəllimlər arasında maarifləndirici söhbətlər aparılmış, bu qəbildən olan uşaqların tədrisdə iştirakını, habelə fərdi nəticələrini müəyyənləşdirmək üçün məktəblərdə psixoloqlar və valideynlərlə görüşlər keçirilmişdir.

Ötən il sağlamlıq imkanları məhdud uşaqların tarixi abidələrə və muzeylərə ekskursiyaları təşkil edilmiş, uşaqların iştirakı ilə tamaşa hazırlanaraq nümayiş olunmuş, 55 müəllifin 165 rəsm və əl işlərindən ibarət 2 sərgi-satış müsabiqə təşkil edilmiş, 90 uşaq Ağbulaq İstirahət Mərkəzinə göndərilmişdir. Bundan əlavə, sağlamlıq imkanları məhdud uşaqlardan ibarət idman bölmələri təşkil olunmuş, Sumqayıt şəhərində keçirilən ikinci Uşaq Paralimpiya Oyunlarında sağlamlıq imkanları məhdud 3 uşağın iştirakı təmin olunmuşdur. Boccia paralimpiya növü üzrə idmançılardan biri 1-ci, digəri isə 3-cü yerə layiq görülmüşdür.

Muxtar respublikada uşaqların yaradıcılığının üzə çıxarılmasına xüsusi diqqət yetirilir. Bu məqsədlə sağlamlıq imkanları məhdud uşaqların da iştirak etdiyi “İstedadlı uşaqlar – 2016” festivalı keçirilmiş, festival çərçivəsində istedadlı uşaqların əl işlərinin sərgisi təşkil edilmiş, ilin ən yaxşı 15 istedadlı uşağı və 5 istedadlı uşaq kollektivi müəyyənləşdirilmiş, qaliblərə diplom və hədiyyə, eləcə də tədbirdə iştirak edən 500 uşağa bayram hədiyyəsi təqdim olunmuşdur. Yetkinlik yaşına çatmayanlarla bağlı maarifləndirmə və təbliğat işinin aparılması məqsədilə 15 uşaq müəssisəsində monitorinq, 643 yoxlama keçirilmiş, 915 seminar və tədbir təşkil edilmiş, 2000-dən artıq broşür paylanmışdır.

Uşaqların hərtərəfli təhsil alması və şəxsiyyət olaraq formalaşması qarşıda duran əsas vəzifədir. Hazırda muxtar respublikanın ümumtəhsil məktəblərində 47 min 387 şagird təhsil alır ki, onlardan da 22 min 215-i qızlardır. Ötən il ümumtəhsil məktəblərini bitirmiş şagirdlərdən 1538-i ali təhsil müəssisələrinə, 566-sı orta ixtisas təhsili müəssisələrinə daxil olmuş, ali məktəblərə qəbul olanların 194-ü qızlar olmaqla, 338-i 500-700 arası bal toplamışdır. Məktəblilərin fənn olimpiadalarında şagirdlər 4 qızıl, 11 gümüş və 11 bürünc medal qazanmışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 14 mart tarixli “Naxçıvan Muxtar Respublikasının elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin təşkili haqqında” Sərəncamına uyğun olaraq elmi dərəcəli müəllimlər tərəfindən 2016-cı ildə muxtar respublikanın ümumtəhsil məktəblərində 1453 saat nümunəvi dərs keçirilib. Bundan əlavə, uşaqların yüksək təhsilə və informasiya-kommunikasiya texnologiyalarına yiyələnmələri istiqamətində bir sıra mühüm işlər görülmüşdür. Hazırda muxtar respublikanın ümumtəhsil məktəblərində 600-dən artıq elektron lövhədən istifadə olunur, 12 şagirdə 1 kompüter düşür.

Uşaqların bədən tərbiyəsi və idmana marağının artırılması və sağlam böyümələri üçün ardıcıl tədbirlər görülür. Ötən il 3800-ə yaxın uşaq müxtəlif idman oyunlarında, 70 uşaq idman sahəsində keçirilən açıq dərsdə, 1020 uşaq intellektual oyunda, 1800-dən artıq uşaq müsabiqələrdə iştirak etmiş, 540 uşağın Ağbulaq İstirahət Mərkəzində istirahəti təşkil olunmuşdur. İstər muxtar respublikada, istərsə də muxtar respublikadan kənarda keçirilən idman yarışlarında uşaq və yeniyetmələr yüksək nailiyyətlər əldə etmişlər. Belə ki, Azərbaycan və Naxçıvan birincilik və çempionatlarında, beynəlxalq turnir və şahmat yarışlarında uşaqlardan 23-ü I yerin, 10-u II yerin, 8-i isə III yerin qalibi olmuşdur.

***Uşaqların asudə vaxtlarının səmərəli təşkili, onların incəsənətin müxtəlif istiqamətlərinə yönəldilməsi, istedadlarının inkişaf etdirilməsi məqsədilə də ardıcıl tədbirlər görülmüşdür. 2015-2016-cı tədris ilində muxtar respublikada fəaliyyət göstərən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərini müxtəlif ixtisaslar üzrə 928 şagird bitirmişdir. Naxçıvan şəhərində fəaliyyət göstərən bağçalarda və tam orta məktəblərin ibtidai siniflərində kitaba marağın artırılması məqsədilə 372 “Nağıl günü” keçirilmiş, 39 tamaşa, bədii və cizgi filmləri göstərilmiş, tətil günlərində muzeylərə ekskursiyalar təşkil edilmişdir.***

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Sosial şəbəkələrdə qədim diyarımızı tanıtmaq üçün nə etməliyik?

***Sosial şəbəkələrdən istifadə böyük auditoriyaya çıxış imkanı yaradır, təbliğat sahəsində geniş imkanlar açır. Bəli, sosial şəbəkələrin müsbət cəhəti çoxdur. Bu şəbəkələr insanların bir-biri ilə ünsiyyət qurmasında, müəyyən məsələlərin müzakirəsində çox mühüm əhəmiyyətə malikdir.***

Bu gün ölkəmizin turizm potensialının nümayiş etdirilməsi üçün sosial şəbəkələr geniş imkanlar açır. Ancaq gəlin görək, biz bu imkanlardan necə yararlanırıq? Gün ərzində yüzlərlə məlumat əldə etdiyimiz bu şəbəkələrə biz hansı məlumatları yerləşdiririk? Təəssüf ki, bu sualın cavabı bir çoxları üçün birmənalıdır: şəxsi şəkillər, yad profillərdən paylaşımlar və digər materiallar. Bunları paylaşdıqdan sonra isə gözləyirik ki, görəsən, bu paylaşımları neçə nəfər bəyənəcək? Ancaq yadımıza düşürmü ki, ölkəmiz haqda, onun turizm potensialı barədə nəsə paylaşaq və elə edək ki, bu paylaşımları xarici ölkələrdə də görə bilsinlər?

Doğrudur, sosial şəbəkələrdə bu sahədə müəyyən addımlar atanlar var, ölkəmizə dair fotolar, məqalələr paylaşan səhifələr fəaliyyət göstərir. Əlbəttə, bu, təqdirəlayiq haldır. Düşünəndə ki, istər coğrafi, istər tarixi, istərsə də mənəvi dəyərlər baxımından olduqca zəngin bir ölkənin vətəndaşıyıq, onda bu iş artıq bizim üçün görülməsi vacib olan öhdəliyə çevrilir.

Yuxarıda qeyd etdiklərimin hamısı, demək olar ki, muxtar respublikamızı tanıtmaq üçün yaradılan səhifələrə də aiddir. Lakin müqayisə etməli olsaq, Naxçıvana aid paylaşımlar edən səhifələrdən heç də hamısı bu işdə fəal deyil. Bəli, bu sahədə xidmət göstərən çox sayda səhifənin adı mövcud olsa da, təəssüf ki, onların hamısında yaxşı və keyfiyyətli işə şahidlik edə bilmirik. Məsələn, götürək ən çox istifadəçisi olan "Facebook" sosial şəbəkəsini. Burada Naxçıvana dair paylaşımlar edən onlarla müxtəlif səhifələrə rast gəlmək mümkündür. Lakin bunlara nəzər yetirdikdə görürük ki, bəzilərinin izləyici kütləsi çox azdır. Hətta bəziləri, sadəcə, bir neçə paylaşım etməklə kifayətlənib və qısa zamanda öz fəaliyyətini dayandırıb. Halbuki səhifə fəaliyyətə başlamazdan əvvəl idarəçiləri canla-başla, həvəslə izləyici kütləsi cəlb etmək, səhifənin reklam olunması üçün müxtəlif yollara əl atıblar. Bəs niyə onlar həvəslə başladıqları bu işi yarımçıq qoyurlar? Fikrimcə, bu sual üzərində düşünməyə dəyər.




...Araşdırmaya fəaliyyətini dayandırmış bir neçə səhifənin yaradıcısı ilə əlaqə saxlamaqla başladım. Onlarla ayrı-ayrılıqda həmsöhbət olduqdan sonra yəqinləşdirdim ki, səhifələrin fəaliyyətinin dayandırılmasında bir səbəb var: o da həmin səhifəni tək işlədə bilməmələridir. İşə şəxsiyyət vəsiqəsində doğulduğumuz yer olaraq qeyd edilən bölgə haqqında bildiyimiz məlumatları səhifə idarəçilərinə ünvanlamaqla başlaya bilərik. Beləliklə, həmin səhifənin paylaşım fondunun zənginləşməsinə müvəffəq olarıq.

"Twitter", "Google+" və "İnstagram" səhifələrinə nəzər saldıqda isə onların daha passiv olduğunu görürük. Digərlərinə nisbətən "İnstagram"da bu istiqamətdə, eyni zamanda Naxçıvan gəncliyini bir araya gətirən, maraqlı və maarifləndirici paylaşımlar edən səhifələrə də rast gəlirik. Lakin təəssüflər olsun ki, "İnstagram"da belə faydalı səhifələrlə müqayisədə lazımsız səhifələr üstünlük təşkil edir. Hətta Naxçıvana dair paylaşımlar edən səhifə idarəçilərindən bir neçəsinin müəyyən zamandan sonra səhifənin adını və profilini dəyişərək etiraf səhifəsinə çevirməsinin də şahidi olmuşuq, onların bu hərəkətlərinə irad bildirdiyimiz zaman isə kobud rəftarla qarşılaşmışıq. Yerdə qalan sosial şəbəkələrdə isə vəziyyət heç də ürəkaçan deyil. Onlarda bu sahədə təbliğat həddən ziyadə zəif, hətta yox səviyyəsindədir. Çox olmasa da, bütün sosial şəbəkələrdə Naxçıvanı təmsil edən bir neçə keyfiyyətli səhifələr fəaliyyət göstərməlidir ki, onlardan istifadə edən hər kəsdə doğma diyarımız haqqında müəyyən təsəvvür yaransın.

Digər bir məsələ isə səhifələrin hansı xarici dillərdə fəaliyyət göstərməsidir. Çünki bir çox səhifə həmvətənlərimizə xidmət edir. Onları izləyən insanların əksəriyyəti azərbaycanlıdır. Bu baxımdan da belə səhifələr tədricən öz aktuallığını itirir, izləyici sayı artmaqdansa, əksinə, get-gedə azalır. Düşünəndə ki, Azərbaycan çox böyük ölkə deyil və vətəndaşlarının çoxunun bu qədim torpaqda olan abidələr, görməli yerlər haqqında kifayət qədər məlumatı var, hətta bir çoxları gəlib belə yerləri əyani olaraq da görüblər, bu zaman başqa nəticə də gözlənilmir. Çünki insanlar bildikləri bir şeyi dəfələrlə təkrar olaraq eşitmək istəmirlər. Buna görə də biz təbliğat üçün sərhədləri aşmalı, əcnəbi insanlarla sosial şəbəkələrdə dostluq etməli, onların səhifəni izləmələrinə müvəffəq olmalıyıq. Baxmayaraq ki, coğrafi mövqe baxımından rusdilli xalqların əhatəsindəyik, bununla belə, ingilis dili ilə müqayisədə rus dilində Naxçıvanı təbliğ edən səhifələr yox səviyyəsindədir. Ölkəmizi ilk olaraq qonşu ölkələr arasında tanıtmaq daha məqsədəuyğundur. Məsələn, çox sadə bir misal gətirim. İstirahət aylarında bir çoxlarımız dincəlmək üçün xarici ölkələrə üz tuturuq. Həmin insanların da çoxu istirahət üçün yaxın qonşu ölkələrdən birini seçir. Bunun üçün araşdırma aparır, hansı ölkəyə getməyimizə, orada xərclədiyimiz pula dəyəcək nəsə görəcəyimizə əmin olduqdan sonra o ölkəyə üz tutmağa qərar veririk. Bu xüsusiyyət qonşu ölkələrimiz üçün də səciyyəvidir. Yəni onların ölkəmizə turist kimi üz tutmağı daha ağlabatandır. Deməli, Azərbaycanda turizmin inkişafı üçün də rus dilində səhifələr çoxluq təşkil etməlidir. Səhifələr qalsın bir kənara, bəzilərimiz bunu öz şəxsi profillərimizdə də həyata keçirə bilərik. Belə ki, yaşadığımız rayon və ya kənddə görməyə dəyər yerlərin fotolarını paylaşmaq da bu işin bir parçasıdır. Bundan başqa, digər bölgələrə gedərkən buradan da maraqlı fotolar paylaşa bilərik. Məsələn, keçən il yayda "Facebook"da şəxsi profilimdə Duzdağ Fizioterapiya Mərkəzi haqqında bəzi məlumatlar və fotolar paylaşmışdım. Bu, dostluğumda olan xarici vətəndaşlardan bir neçəsinin diqqətini çəkmişdi. İnternet üzərindən məndən paylaşılanların nə dərəcə doğru olduğunu maraqlandılar və verdikləri suallara cavab aldılar. Düşünürdüm ki, sadəcə, maraq üçün soruşurlar. Lakin bir neçə həftədən sonra onlardan "Naxçıvana gəlmişik, sizi də görmədən getməyək", – deyə elektron məktub aldım. Görüşdən sonra aydın oldu ki, onları buraya, Naxçıvana gətirən Duzdağ Fizioterapiya Mərkəzinin faydalı müalicə imkanları haqqında paylaşdığım məqalə olub. Bax belə, bunu hamımız bacararıq.

Paylaşdıqlarımızı geniş kütlənin görməsi daha yaxşı olar. Şəxsi profillərimizdə bu, mümkün olmur. Əsas problemlərdən biri də hamının xarici dil biliyinin olmamasıdır. Səhifələr də məhz elə bu problemi aradan qaldırır. Səhifələrə göndərilən material hər hansısa bir xarici dildə olmaya da bilər. Həmin materiallar idarəçilər tərəfindən tərcümə olunur və xarici dillərdə paylaşılır. Səhifələrdə hazır şəkildə paylaşılan məlumatları öz şəxsi profilimizdə də asanlıqla paylaşa bilərik.

Səhifələri idarə edənlərin əksəriyyəti gənclərdir. Gənclərin bu istiqamətdə də fəallıq göstərməsi olduqca sevindirici haldır. Bəs tarixi-memarlıq nümunələrimizi bütün dünyaya tanıtmaq məqsədilə işlər görən insanların özü tariximizi nə dərəcədə bilir, paylaşdıqları haqqında dərindən məlumatlıdırlarmı, yoxsa, sadəcə, paylaşım xatirinə axtarış aparıb tapdıqları bir neçə cümlə ilə kifayətlənirlər? Bəli, təəssüflər olsun ki, buna da rast gəlirik. Hətta bəziləri bekarçılıqdan, internet vasitəsilə məşhurlaşmaq üçün səhifələr yaradırlar. Düşünmürlər ki, yanlış məlumatı özündə əks etdirən bir cümlə belə, muxtar respublikanın, ölkəmizin əleyhinə və xoşagəlməz hallara səbəb ola bilər. Buna görə də belə səhifələrin idarəediciləri daim tarixçilərlə əlaqə saxlamalı, paylaşılacaq materialları onlarla birlikdə hazırlamalı, ortalığa yaxşı bir nəticə çıxarmalıdırlar. Qısaca, sıradan, internetdə bir düymə ilə tapa biləcəyimiz məlumatlar deyil, araşdırma tipli materiallar hazırlanmalıdır. Bir sözlə, bir az dərinə getmək lazımdır. Məsələn, elə götürək tələbələri. Onlar sosial şəbəkələrin fəal istifadəçiləridir və ancaq heç də hamısı ondan səmərəli şəkildə istifadə etmir. Təhsil aldıqları müəssisədə, universitetdə tarixi və coğrafi əhəmiyyətli mövzular onlar arasında bölüşdürülərək öhdəliklərinə qoyulub hazırlansa, diskussiyalar keçirilsə və həmin diskussiya materialları həm mətn, həm də video şəklində səhifələrdə paylaşılsa, bu, Naxçıvanın tanıdılması üçün xeyli səmərə verər.

***Tək əldən səs çıxmaz. Bu işdə hər kəs bir vətəndaş kimi öz üzərinə düşən vəzifəni yerinə yetirməli, bu istiqamətdə işlər görməlidir. Hər birimiz belə səhifələrdəki materialların keyfiyyətli olmasına çalışmalıyıq. Beləliklə, həmin səhifənin paylaşım fondunun zənginləşməsinə müvəffəq olarıq. Yəni bunu bacara bilərik. Bacara biləriksə, nə gözləyirik?***

Fatma BABAYEVA

***Kişi voleybolçular arasında Azərbaycan çempionatının iştirakçısı "Naxçıvan" komandası yeni baş məşqçi, rusiyalı mütəxəssis Aleksandr Çornı ilə növbəti dövrənin oyunlarına hazırlaşır. Yüksək liqada böyük hədəfləri olan Aleksandr Çornı bizimlə söhbətində hazırlıq prosesini dəyərləndirdi.***

## Aleksandr Çornı: *"Məqsədimiz Azərbaycan çempionatının qalibi olmaqdır"*



***– SSRİ çempionu, SSRİ kubokunun qalibi, eyni zamanda dünya və Avropa çempionatının mükafatçısı olmusunuz. Məşqçilik karyeranıza məhz Rusiyada başlamısınız. Başqa bir ölkədə çalışmaq sizə çətin gəlmir?***

– Əslində, peşəkar bir məşqçi üçün heç nə çətinlik yarada bilməz. Məşqçi öz işini sevirsə, o, öz ölkəsi ilə yanaşı, digər ölkələrdə də bildiklərini, bacardıqlarını başqalarına öyrətməlidir. Mənə Azərbaycanda işləmək təklif olunanda razılaşdım. Danışıqlardan sonra mənə dedilər ki, Naxçıvan komandasında məşqçiyə ehtiyac var və bu komandanın hədəfləri böyükdür, həmçinin bölgədə voleybolun yüksəlişinə nail olmaq istəyirlər. Təklifi qəbul edib Naxçıvan komandasının hazırlıqlarına başladım. İndi görürəm ki, səhv qərar verməmişəm: şərait və istək var, heyətimiz gənc voleybolçulardan qurulub.

***– Artıq 3 həftədən çoxdur ki, Naxçıvandasınız. Voleybol üzrə Azərbaycan çempionatında yüksək dəstənin üçüncü dövrəsinin başlanmasına az bir zaman qalıb. Komandanın hazırlıqları necə gedir?***

– Növbəti dövrəyə ciddi hazırlaşırıq. Hər bir məşqçinin məqsədi olduğu kimi, mənim də əsas hədəfim çempionatı ilk 3 pillədə başa vurmaq və pley-off-da mübarizə aparmaqdır.

***– Bəs Naxçıvana gəldikdən sonra sizi təəccübləndirən nə oldu?***

– İlk məşq günümdə Azərbaycan Voleybol Federasiyasının nümayəndələri də burda idi. Məşqə başlamamışdan öncə meydanda 21 voleybolçu var idi, çox təəccübləndim. Elə ilk məşqdən sonra 16 nəfərin məşqə davam edəcəyini bildirdim. Çünki mən heyəti formalaşdırmaq üçün seçim etməli idim və indi heyətdə 12 yerli voleybolçu qalıb. Digər iki voleybolçu isə legionerdir.

***– Elə legionerlərdən söz düşmüşkən, məşqlərə başlayarkən iki legioner komandaya dəvət olunmuşdu. İndi isə bunların sayı üçdür...***

– Bəli. Aleksandr Vasilyev və Dmitri Baranovla ilk məşqdə tanış oldum. Sonra heyətimizə rusiyalı Roman Vitsenkonu qatdıq. Onu çox yaxşı tanıyıram, vaxtilə rəhbərlik etdiyim komandada oynayıb. Təcrübəli, eyni zamanda istedadlı voleybolçudur. İndi onlar komanda ilə məşq proseslərində bir-birlərinə alışmağa çalışırlar. Məqsədimiz yerli voleybolçuları yetişdirmək və onları Naxçıvan idmanına bəxş etməkdir.

***– Yerli oyunçulardan daha çox diqqətinizi kimlər cəlb edir?***

– Heyətimizdə gələcəkdə daha təcrübəli ola biləcək Asif, Kənan və Pərvin var. Onlarda top qəbulu, blok yaxşı alınır. Eyni zamanda Polad və Kamran da çox təcrübəli voleybolçulardır. Lakin üzərlərində ciddi və çox çalışmalıdırlar. Yaxşı ötürmə qabiliyyəti olan Ülvi və Şamili, sürətli oyunu sevən Teymuru qeyd edə bilərəm. Bilirsiniz, hər bir idman növündə yerli idmançılar legionerləri üstələməlidirlər. Çünki onların üzərinə daha çox məsuliyyət düşür.

***– Qeyd etdiniz ki, məqsəd pley-off-da mübarizə aparmaqdır. Ümumiyyətlə, bura gələrkən qarşınıza hansı vəzifələr qoyulub?***

– Naxçıvanda voleybola maraq çoxdur. Hətta bizim sadiq azarkeşlərimiz də var və hər məşqdə onları görüb salamlaşırıq. İnanıram ki, onlar oyunlar zamanı zalı tam olaraq dolduracaqlar və bizə əlavə güc verəcəklər. Komandamız yeni formalaşmağa başlayıb: məşq avadanlıqları, toplar gətirilib, tibbi personal yaradılıb. Azərbaycan çempionatında çıxış edən digər komandaların güclərinə bələd deyiləm. Amma idmanda belə bir deyim var: idmançılarla məşqçinin istəyi birləşsə, bacarmayacağınız bir şey yoxdur. Bizi də qarşımızdakı hədəfə yalnız gücümüz aparacaq. Bizdən tələb olunan isə voleybolun inkişafı və muxtar respublikada bu idman növünü bacardığımız qədər təbliğ etməkdir.

***– Komanda uğurlu çıxış edib Avropada iştirak etmək hüququ qazanarsa, o zaman Naxçıvan idmanında tarixə düşəcəksiniz...***

– İstəyim də budur: uğur qazanmaq və komandamı digərlərindən yüksəkdə görmək. İstəyimə çatmaq üçün komandanı daha ciddi hazırlamalı və idmançılara qələbə motivasiyası verməliyəm. İstəyirəm ki, mən nə vaxtsa buradan getdikdən sonra gördüyüm işin nəticəsi xatırlansın.

***– Yaqin şəhəri gəzməyə vaxtınız olub. Naxçıvanda ən çox nəyi bəyənirsiniz?***

– Düzünü deyim, şəhəri tam olaraq gəzmək imkanım olmayıb. Ancaq məşq-mehmanxana, mehmanxana-məşq. Lakin insanlar məni yolda görərkən diqqətlə yanaşırlar ki, bu da məni həddsiz dərəcədə xoşbəxt edir. Bu cür insanları tanımaq mənim üçün böyük qürurdur.

Ceyhun MƏMMƏDOV


**ŞƏRQ qapısı**

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 121